**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№305/6** **14 noyabr 2018-ci il**

**Nümunəvi firmadaxili audit standartlarının hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.12-ci "Nümunəvi firmadaxili audit standartlarının hazırlanması" bəndinə uyğun olaraq sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış "Audit Seçməsi" Firmadaxili Audit Standartının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Audit Seçməsi" Firmadaxili Audit Standartının layihəsi bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, nümunəvi "Audit Seçməsi" Firmadaxili Audit Standartının öz fəaliyyətlərində tətbiq edilməsi məqsədilə sərbəst auditorlara və audior təşkilatlarına çatdırılmasını təmin etsin.
3. Bu qərarın və "Audit Seçməsi" Firmadaxili Audit Standartının mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**